Yanvarın 17-də qonaqlar Fəxri Xiyabana gələrək, ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın məzarlarını, Şəhidlər Xiyabanını və Türk şəhidliyi abidəsini ziyarət ediblər.

Daha sonra səfər çərçivəsində Bakı Dövlət Universitetində görüş keçirilib. Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Abel Məhərrəmov Azərbaycan ilə Türkiyənin mehriban qardaşlıq münasibətlərinin əhəmiyyətindən, iki ölkənin ali təhsil ocaqlarının mövcud əməkdaşlığından danışıb.

Tədbirdə çıxış edən Türkiyə Ali Təhsil Şurasının sədri Gökhan Çetinsaya iştirakçıları salamlayaraq, Azərbaycana gəlişindən böyük məmnuniyyət hissi keçirdiyini bildirib. Gökhan Çetinsaya iki olkənin təhsil sahəsindəki səmərəli əlaqələrindən söz açıb və bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Sonra təhsil nazirinin müavini Qulu Novruzov çıxış edərək Azərbaycanla Türkiyə arasında münasibətlərin getdikcə inkişaf etdiyini, bu səfərin təhsil sahəsindəki əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyəti olacağını bildirib. Nazir müavini istər tələbə mübadiləsinin səviyyəsinə, istərsə də elmi əməkdaşlığa görə Azərbaycanın ən sıx əməkdaşlıq etdiyi ölkənin məhz Türkiyə olduğunu qeyd edib.

Tədbirdə Bakı Dövlət Universiteti ilə Anadolu və Rəcəb Tayyib Ərdoğan universitetləri arasında Anlaşma Memorandumu imzalanıb. Qeyd edək ki, memorandumda tələbə, tədqiqatçı və doktorantların mübadiləsi, professor və müəllim heyətinin elmi sahədə ixtisaslarının artırılmasına qarşılıqlı yardım göstərilməsi, birgə simpozium, seminar və konfransların təşkili, qarşılıqlı maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakı nəzərdə tutulur.